# XII Bakı Qlobal Forumu

## yeni dünya düzəni prioritetləri ilə gündəmdədir




**Martın 12-də "Four Season" hoteldə Bakıda keçiriləcək XII Bakı Qlobal Forumunun İdarə Heyətinin mətbuat konfransı təşkil olunub.**

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Frayberqa məlumat verib ki, Forumda 400-ə yaxın iştirakçı gözlənilir və bu, onların Azərbaycanı daha yaxından tanıması üçün çox gözəl fürsətdir. Latviyanın sabiq prezidenti həmçinin qeyd edib ki, bu gün ölkələr arasında gərginliklər böyük narahatlıq doğurur. Belə bir şəraitdə münaqişə tərəfləri olan ölkələrin atəşkəsə nail olması önəmlidir. Dünya miqyasında istənilən problem yalnız danışıqlar və müzakirələr yolu ilə həll edilməlidir. Rusiyanın Ukraynaya hərbi müdaxiləsi fonunda qlobal səviyyədə narahatlıq doğuran məsələlərin iştirakçı ölkələr arasında müzakirəsi çox böyük əhəmiyyət daşıyır. Hazırkı dövrdə ölkələr arasında münaqişələr mülki infrastrukturun dağıdılmasına, insanların qətlə yetirilməsinə səbəb olur. Bakı Forumunda bütün bu məsələlərin müzakirə olunacağına və həll yolları axtarılacağına ümidvar olduğunu bildirib. Forum dünyanın müxtəlif yerlərindən olan iştirakçıların çox geniş şəkildə müzakirələr apara biləcəyi platforma olacaq.

Gürcüstan baş nazirinin sabiq müavini Eka Tkeşelaşvili vurğulayıb ki, Azərbaycan strateji baxımdan önəmli coğrafi məkanda yerləşir və dünya miqyasında çox mühüm rol oynayır. Onun sözlərinə görə, XII Bakı Qlobal Forumunda sülhə nail olmağın yolları, geosiyasi dəyişikliklər, münaqişə sonrası yenidənqurma və regional sabitlik mövzuları geniş müzakirə olunacaq. Azərbaycan iri həcmdə neft və qaz ehtiyatlarına, o cümlədən bərpaolunan enerji mənbələrinə sahibdir. Rəsmi Bakı dünya arenasında üzərinə cəsarətli öhdəlik götürərək COP29 tədbirini keçirdi, vacib müzakirələr təşkil etdi: "Biz bu platformada COP29-dan COP30-a qədər yol ilə bağlı sessiya keçirəcəyik. Bununla da iqlim dəyişmələri kimi həll tələb edən məsələlər və digər qlobal problemlərlə məşğul olmağa davam edəcəyik".

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldinin sözlərinə görə, bu il Forumda 50 fəaliyyətdə olan və sabiq prezident, baş nazir, BMT strukturlarının rəhbərləri, alimlər və ekspertlər iştirak edəcəklər. O deyib: "XII Bakı Qlobal Forumu dünyanın aparıcı liderlərini, beynəlxalq təşkilatların nümayəndələrini və alimlərini açıq, məzmunlu diskussiyalar üçün bir araya gətirən mühüm hadisə olacaq. Müzakirələrin açıq, səmimi, təcrübə və analitik nəticələrə yönəldilməsi vacib məsələdir". Forumun keçiriləcəyi üç gün ərzində faydalı, aktual məsələlər müzakirə ediləcək. Əsas məqsəd müxtəlif məsələlərə dair təcrübələri daha da artırmaqdan ibarətdir.

"Exxon Mobile" şirkətinin keçmiş vitse-prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvü Cin Baderşnayder isə vurğulayıb ki, Bakıda keçirilən COP29 tədbirində iqlim maliyyəsinin 300 milyard dollara çatdırılması ilə bağlı mühüm irəliləyişin əldə edilməsi vacib amildir. O, "Bakı-Belen yol xəritəsi"nin Qlobal Forumun müzakirə mövzularından biri olacağını da deyib: "İqlim maliyyəsinin həcmi 1,3 trilyon dollar olmalı idi. Nəticədə tərəflər bu məsələyə dair birgə fəaliyyət planını razılaşdırdılar. Bu, iqlim maliyyəsi üzrə ən mükəmməl plandır. Xüsusilə vurğulamaq lazımdır ki, 2025-ci il çox mühüm dövrdür. Cari ildə maliyyənin həcmi razılaşdırılarsa, bu rəqəm 3 trilyon dollar təşkil edəcək. Hazırda əsas məsələ bu hədəfin reallaşdırılmasından ibarətdir".

13-15 mart tarixlərində "Dünya düzəninin yenidən düşünülməsi: çağırışların fürsətə çevrilməsi" mövzusuna həsr olunan tədbir çərçivəsində "Geosiyasi dəyişmələr", "Multilateralizmə yenidən baxılması", "Gələcək üçün BMT Paktı", "Ukrayna-Avropa Birliyi", "Qlobal səhiyyə böhranda", "Sülh-münaqişə sonrası yenidənqurma və regional sabitlik", "COP29: Belem üçün sıçrayış", "Yeni dünya üçün yeni texnologiyalar", "Gender-təhlükəsizlik iqlim bağlantısı" kimi mövzular müzakirə olunacaq.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**

Respublika.- 2025.- 13 mart (№55).- S.3.